Xalq qəzeti 2021.- 8 yanvar.- S.12.

# Şəhidlik zirvəsi



**Azərbaycan ikinci Qarabağ müharibəsini uğurla başa çatdırdı, tarixi torpaqlarımız erməni işğalından azad edildi. Amma istər birinci, istərsə də ikinci Qarabağ müharibəsində igid oğullarımız Vətən uğrunda canlarını fəda ediblər. Belə igidlərdən biri də Nəsib Mikayıl oğlu Məlikovdur.**

Nəsib 1969-cu il yanvarın 8-də Bakıda anadan olub. Bu günlərdə oğlunun doğum günü ərəfəsində redaksiyamızda olan anası Lətifə Xəlilova bildirdi ki, Nəsib fiziki cəhətdən sağlam, ucaboy, enlikürək, cəsur bir gənc olub. 1988-90-cı illərdə sovet ordusunda xidmət edib, sonrakı həyatını da hərb işinə bağlayıb. O, Bakıdakı hərbi hissələrdən birində xidmətə başlayıb. 1992-ci ildə Müdafiə Nazirliyi tərəfindən Türkiyəyə göndərilib. Ankara Hərbi Akademiyasında mükəmməl təhsil alıb.

Nəsibin sonrakı hərbi xidməti cəbhə bölgəsində keçib. Əsasən Ağdərə cəbhəsində döyüşlərə qoşulub. Bu cəbhədə igid oğullarımız düşmənə ağır zərbələr endirərək onun yeni ərazilərimizi işğal etməsinə imkan verməməyə çalışıblar. Nəsib də dəfələrlə erməni hərbi birləşmələrinin istər ağır texnika, istərsə də canlı qüvvə sarıdan böyük itkilər verməsinə səbəb olub. Bir neçə döyüşdə özünün qorxmazlığı və şücaəti ilə fərqlənib, hərbi hissə komandanlığının etimadını qazanıb. Qazanılmış mövqeləri axıradək əldə saxlamaq, yaralanmış döyüş yoldaşlarını düşmənə əsir düşməkdən xilas etmək üçün Nəsib sinəsini sipər etməyi bacarıb. Eyni zamanda, fiziki imkanlarına, uca boyuna, qüvvətli qollarına güvənərək ölümün üstünə yeriməkdən belə çəkinməyib. Elə bu ehtiyatsızlığı üzündən 1994-cü il sentyabrın 11-də aparılmış döyüşlərin birində namərd düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb.

Sonrakı illərdə Nəsib Məlikovun xatirəsi əbədiləşdirilib. Hazırda Bakının Sabunçu rayonundakı küçələrdən birinə Nəsib Məlikovun adı verilib. Ankara Hərbi Akademiyasındakı şəhidlər lövhəsində onun da şəkli var. Anası Lətifə xanım deyir ki, 44 günlük müharibədə torpaqlarımızı Nəsib kimi mərd oğullarımız azad ediblər. Ona görə oğlunun da ruhu şaddır.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***